Yeni Azərbaycan.- 2021.-5 oktyabr.- S.8.

# Türkiyə-Azərbaycan birgə hərbi təlimləri: sülhün və təhlükəsizliyin qarantı

## Bu hərbi təlimlər heç bir ölkəyə qarşı yönəlməyib



Məlum olduğu kimi, vaxtaşırı Azərbaycan ost və tərəfdaş ölkələrlə davamlı olaraq birgə ərbi təlimlər keçirir. Buna nümunə kimi Azəraycan və Türkiyənin "Mustafa Kamal Atatürk-021", "Anadolu Qartalı-2021", "Sarsılmaz Qaraşlıq-2021", Azərbaycan, Türkiyə və Pakistanın üsusi təyinatlılarının "Üç qardaş-2021" hərbi təmləri buna sübutdur. Dünən isə Gürcüstanın aytaxtı Tbilisi şəhərində Azərbaycan, Türkiyə ə Gürcüstan hərbi qulluqçularının iştirakı ilə Eternity-2021" kompüter dəstəkli komanda-qəargah təlimi başlayıb. Bu məqsədlə müdafiə nairi Zakir Həsənov Tbilisiyə səfər edib.

Ümumiyyətlə, mütəmadi olaraq hərbi təlimlən keçirilməsi dövlətlərarası razılaşmalara əsaən reallaşdırılır. Azərbaycanın ən çox birgə həri təlim keçirdiyi ölkə isə dost və qardaş Türkiədir. Xatırladaq ki, Naxçıvanda "Sarsılmaz Qaraşlıq-2021" birgə döyüş atışlı taktiki təlimlər həə də davam edir.

Hərbi təlimlərin əhəmiyyəti ilə bağlı Milli Məclisin Azərbaycan-Türkiyə Parlamentlərarası laqələr üzrə işçi qrupunun üzvü Məlahət İbraimqızı qəzetimizə açıqlamasında bildirib ki, zərbaycan dövlətinin bu istiqamətdə sərgilədii mövqe beynəlxalq hüquqa və dövlətlərarası mzalanmış sənədlərə əsaslanır: **"Azərbaycan ə Türkiyə bu gün əsl müttəfiqlik nümunəsi rtaya qoymaqdadır. Bu strateji tərəfdaşlığın n mühüm istiqamətlərindən biri olan hərbi məkdaşlıq məsələsi iki qardaş ölkənin Silah Qüvvələrinin yeni situasiyada birgə fəaliyəti üçün də yeni perspektivlər vəd edir. Belə i, Azərbaycan Prezidenti İlham Əliyev və ürkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb ayyib Ərdoğanın bu il iyunun 15-də imzalaığı "Şuşa Bəyannaməsi"ndə hər iki ölkənin hüstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, eynəlxalq səviyyədə tanınmış sərhədlərinin oxunulmazlığı kimi milli maraqlara söykənən nəsələlərdə ikitərəfli və çoxtərəfli formatlara həmrəylik və qarşılıqlı yardım prinsiplərinən çıxış edilməsi xüsusi vurğulanır. O cümədən sənəddə Azərbaycanla Türkiyənin siahlı qüvvələrinin müasir tələblərə uyğun olaaq yenidən formalaşdırılması və modernləşirilməsi istiqamətində birgə səylərin davam tdirilməsi vurğulanır. Bütün bunlar isə yeni önəmdə Azərbaycan-Türkiyə müttəfiqliyinin sas komponentləri sırasındadır".**

Millət vəkilinin sözlərinə görə, Türkiyə-Azərbaycan Silahlı Qüvvələrinin modernləşməsində, ordumuzun peşəkarlığının artırılmasında əsl qardaş dəstəyi göstərir: **"Ümumiyyətlə, birgə hərbi təlimlər, o cümlədən "Sarsılmaz Qardaşlıq-2021" təlimləri əməkdaşlığa, sabitliyə və təhlükəsizliyə xidmət edir".**

"Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə" İctimai Birliyinin sədri Emin Həsənli isə qeyd edib ki, Azərbaycanla Türkiyə arasında birgə hərbi təlimlərin keçirilməsi hərbi əməkdaşlığın mühüm elementlərindən biridir: **"Bütün sahələrdə olduğu kimi, hərbi sahədə də hər iki dövlətin əməkdaşlığı yüksələn xətlə davam edir. Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkələrimiz arasında hərbi əməkdaşlığın da yüksəlməsində müstəsna xidmətləri var. Yəni bu istiqamətdə siyasi iradə ortadadır. Bunun nəticəsində Azərbaycan və Türkiyə silahlı qüvvələrinin birgə hərbi təlimləri ilbəil artırılır. Hazırda Naxçıvanda davam edən "Sarsılmaz Qardaşlıq-2021" birgə təlimləri də bu baxımdan önəmlidir. Bu hərbi təlim heç bir ölkəyə qarşı yönəlməyib, sadəcə iki qardaş ölkənin əməkdaşlığı çərçivəsində həyata keçirilir. Əslində, düşünürəm ki, bu hərbi təlimlər sülh və təhlükəsizlik naminədir, onun bütün region üçün faydası var. Çünki Azərbaycanla Türkiyə hər zaman bölgədə sülh və əməkdaşlıq təşəbbüsləri ilə çıxış edir. Məşhur bir deyim var ki, "təlimdə nə qədər tər töksən, döyüşdə bir o qədər az qan axıdarsan". Bu baxımdan Türkiyə ilə Azərbaycanın hərbi qüvvələrinin birgə təlimlərinin son həddinin də olmadığını düşünmək lazımdır".**

Hərbi ekspert söyləyib ki, hərbi təlimlərin əhəmiyyəti 2020-ci ildə Vətən müharibəsində daha aydın şəkildə göründü: **"Azərbaycan Ordusu çox böyük bir imtahandan uğurla çıxa bildi. Burada qardaş ölkənin hərbi qüvvələri ilə uzun illərdən bəri keçirilən birgə hərbi təlimlərin rolu, təsiri çox ciddi rol oynadı. Azərbaycan Ordusu XXI əsrin müharibəsini apardı və düşmən ordusunu diz çökdürdü. Bizim təcrübəmizdən artıq bir çox ölkələr bəhrələnir. Türkiyə Ordusu NATO-nun ikinci güclü ordusudur. Azərbaycan Ordusunun belə bir güclü, müasir tələblərə cavab verən ordu ilə əməkdaşlığı, birgə təlimləri davam edəcək".**

***Nardar BAYRAMLI***